

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

12 avqust 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 30 (3543)

# MÜASİR ENERJİ SİSTEMİ ÜMUMİ İNKİŞAFIMIZIN TƏZAHÜRÜDÜR

## *İstehlakçılar etibarlı və keyfiyyətli elektrik enerjisi ilə təchiz olunur*



Azərbaycanın sosial-iqtisadi tərəqqisində mühüm elementlərdən olan energetika sahəsinin inkişafına dövlət səviyyəsində çox böyük diqqət yetirilib, ölkəmizin elektrik enerjisi təsərrüfatında köklü islahatlar, bu sahədə mükəmməl infrastrukturun yaradılması üçün ardıcıl və kompleks tədbirlər gerçəkləşdirilib. Bununla da ölkəmizin elektrik enerji sistemi, enerji istehsalı infrastrukturu yenidən qurulub, ölkədaxili və respublikamızı xarici ölkələrlə əlaqələndirən magistral elektrik xətləri yenilənib, şəhər və rayonlarda onlarla böyük və kiçik elektrik stansiyaları tikilib.

Ötən həftə Prezident İlham Əliyevin açılışlarında iştirak etdiyi "Suraxanı" və "Abşeron" yarımstansiyaları da elektrik enerjisinin generasiyasının gücünə güc qatmaqla yanaşı, həm də ümumi inkişafımızın təzahürüdür. Bu yarımstansiyalar istehlakçıların etibarlı və keyfiyyətli elektrik enerjisi ilə təchiz olunmasında önəmli rol oynayacaq.

Əsaslı şəkildə yenidən qurulan 110/35/6 kilovoltluq "Suraxanı" yarımstansiyası barədə Prezident İlham Əliyevə məlumat verilib ki, istismar müddəti keçmiş yarımstansiya sökülərək açıq tiplidən qapalı tipli variantda tam yenidən qurulub. Bununla da Suraxanı rayonu, Sabunçu və Xəzər rayonlarının bir hissəsi, o cümlədən bir neçə digər sosial strateji və sosial infrastruktur obyekti elektrik enerjisi ilə təchiz ediləcək.

Bildirilib ki, xüsusi layihə əsasında "Suraxanı" yarımstansiyasının gərginliyi dəyişdirilərək 110/20/6 kilovoltluqdan 110/35/6 kilovoltluğa keçirilib, itkilərin azaldılmasına nail olunub. Eyni zamanda, yarımstansiyanın transformatorlarının ümumi gücü də 126 meqavolt amperədək artırılıb. Müasir avadanlığın quraşdırılması nəticəsində yarımstansiyanın istismar xərclərinin azaldılmasına, işçi heyətin təhlükəsiz əmək fəaliyyətinə, avadanlıqların ətraf mühitin zərərli təsirindən qorunmasına və yarımstansiyanın daha səmərəli fəaliyyət göstərməsinə nail olunub.

"Abşeron" yarımstansiyası isə 500/330/220 kilovoltluqdur. Bu yarımstansiyada 40 ilə yaxın müddətdə istismarda olan avadanlıqlar köhnəldiyindən, yeni texnologiyalara cavab vermədiyindən və bütün bunlarla yanaşı tələbat dəfələrlə artdığından istismarda ciddi problemlər yaranırdı. Məhz buna görə, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq ölkənin ən böyük yarımstansiyası olan "Abşeron" yarımstansiyası əsaslı şəkildə yenidən qurulub.

"Abşeron" bütövlükdə Bakının və Abşeron yarımadasının əksər hissəsini elektrik enerjisi ilə təchiz etməklə bərabər, bütövlükdə ölkənin enerji sisteminin əsas bazası hesab olunur. Mingəçevir, Şirvan və digər şəhərlərdə yerləşən iri elektrik stansiyalarından çox böyük həcmdə yük, məhz "Abşeron" yarımstansiyasına, buradan isə sistem əhəmiyyətli 330, 220 kilovoltluq yarımstansiyalara ötürülür. Bu yarımstansiyanın müasir səviyyədə yenidən qurulması Azərbaycanda enerji sisteminin maddi-texniki bazasının daha da möhkəmləndirilməsi baxımından böyük rol oynayır.

Prezident İlham Əliyev "Suraxanı" və "Abşeron" yarımstansiyalarını işə salıb.



# DAXİLİ İŞLƏR NAZİRİ POLİS ƏMƏKDAŞI İLƏ VİDA MƏRASİMİNDƏ İŞTİRAK EDİB





İyulun 27-də narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı daxil olmuş əməliyyat məlumatı əsasında keçirilən əməliyyat tədbiri zamanı polis əməkdaşlarına müqavimət göstərən şübhəli şəxsi zərərsizləşdirərkən onun üzərində olan qumbaranı partlatması nəticəsində Səbail Rayon Polis İdarəsinin Cinayət Axtarışı Şöbəsinin əməliyyat müvəkkili, polis kapitanı Elçin Səfərov müxtəlif dərəcəli bədən xəsarətləri almışdı.

Ağır yaralandığına görə tibb müəssisəsinə yerləşdirilmiş E.Səfərov bütün tibbi müdaxilələrə baxmayaraq avqustun 5-də vəfat edib.

Polis əməkdaşı ilə vida mərasimində Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov və nazir müavinləri iştirak ediblər.

Onun əziz xatirəsi, xidməti fəaliyyəti zamanı fədakarlığı qəlbimizdə əbədi yaşayacaqdır. Yaxınlarına, doğmalarına Allahdan səbr diləyirik!

**Allah rəhmət eləsin!**

# DÖYÜŞÇÜ MƏTİNLİYİ, SİLAHDAŞ DƏYANƏTİ

**1992-1994-cü illərdə Vətən torpağını erməni işğalçılarından müdafiə etmiş, şərəfli döyüş yolu keçmiş fədakar ataların layiqli davamçıları olan cəsur oğulları bizə Vətən müharibəsi tanıtdı.**

Birinci Qarabağ müharibəsi veteranı, ordu sıralarından ehtiyata buraxılan zabit Vaqif İsgəndərovun oğlu gizir Emil İsgəndərov Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Vətən müharibəsi iştirakçısı olan şəhid hərbi qulluqçularındandır. Bu vətənpərvər ailənin timsalında amansız müharibənin iki nəslin həyatında necə bir silinməz iz qoyduğunu görmək olar.

Emil 1990-cı il avqustun 5-də Sumqayıt şəhərində doğulub. Valideynləri Vaqif İsgəndərov və Tənzilə İsgəndərova əslən Qubadlı rayonundandırlar. Birinci Qarabağ müharibəsi zamanı Qubadlı rayonu da işğal edildikdən sonra xeyli sayda məcburi köçkün Sumqayıta pənah gətirib.

V.İsgəndərov 1992-1997-ci illərdə Azərbaycan ordusu sıralarında xidmət edib. Artilleriyaçı zabit kimi Xocavənd, Ağdərə, Füzuli, Ağdam və Goranboy rayonları istiqamətində döyüş tapşırıqlarını yerinə yetirib, müharibənin ağrı-acılarını yaşayıb, kontuziya alıb. O, "kapitan" hərbi rütbəsində ordudan ehtiyata buraxılıb. Hazırda Sumqayıtdakı Cəlil Səfərov adına 10 saylı orta məktəbdə idman müəllimidir.

Oğlu Emil 2008-2010-cu illərdə müddətli həqiqi hərbi xidmətdə olub. Müdafiə Nazirliyinin Bakıda və Gəncədə yerləşən "N" saylı hərbi hissələrində artilleriya bölməsində xidmət keçib, "kiçik çavuş" hərbi rütbəsində tərxis edilib.

2012-ci ilin avqust ayında Emil həyatının mühüm qərarlarından birini veribhərbçi kimi atasının davamçısı olmaq yönündə addım atıb. DİN-in Daxili Qoşunlarının "N" saylı hərbi hissəsinə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Bu hərbi hissədə xüsusi vasitələrin tətbiqi bölməsində xüsusi vasitələrin tətbiqi qrupunun yarımqrupunda atıcı, yarımqrup komandiri, həmin bölmənin manevr qrupunun komandiri, xüsusi təyinatlı dəstədə texnik vəzifələrində xidmət





edib. Hərbi hissə komandanlığı tərəfindən bacarıqlı hərbi qulluqçu olduğuna görə gizir hazırlığı kursuna göndərilib. 2014-cü il sentyabrın 15-dən 2015-ci il martın 19-dək Daxili Qoşunların Ali Hərbi Məktəbində gizir hazırlığı kursunu keçib.

11.03.2020-ci il tarixdə isə Emil "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstədə texnik vəzifəsinə təyin edilib. Fəaliyyətindəki uğurlar və şəxsi keyfiyyətləri nəzərə alınaraq, o, xüsusi təyinatlı dəstədə xidmətə seçilib. Bütövlükdə, icraçılığı, çalışqanlığı ilə hərbi xidməti dövründə komandanlığın etimadını doğruldub, silahdaşlarının hörmətini qazanıb. Dəfələrlə müxtəlif mükafatlara layiq görülüb.

Hərbi xidmətə aid məsələlər barədə Emil həmişə atası ilə məsləhətləşib, onun təcrübəsindən bəhrələnib.

Birinci Qarabağ müharibəsi dövründə uşaq yaşlarında olan, atasının ön cəbhədən sağ qayıtmasına digər ailə üzvləri ilə birgə ürəkdən sevinən Emilin illər sonra döyüşə yollanacağını o vaxt heç kəs düşünə bilməzdi.

Gizir E.İsgəndərov 2020-ci ilin 27 sentyabrında başlayan və 44 gün davam edən Vətən müharibəsi zamanı öz bölməsinin tərkibində döyüş bölgəsinə göndərilib. Həmin bölmə Vətən müharibəsinin əvvəlindən ehtiyat qüvvə qismində "N" saylı hərbi hissədə yerləşdirilərək döyüş əməliyyatlarına hazırlıq görüb. Bir müddət sonra Füzuli-Cəbrayıl rayonları istiqamətinə gəliblər. Qarşıya qoyulan tapşırığa əsasən, oktyabrın sonunadək Cəbrayıl rayonunda işğaldan azad edilən ərazilərin müdafiəsində dayanıblar. Həmin ayın son günündən etibarən xüsusi təyinatlılarımız Xocavənd rayonunun Hadrut qəsəbəsində cəmləşdiriliblər. Buradan Tuğ, Böyük Tağlar kəndlərinə döyüşçülərimizi daşıyan avtomobil karvanı işğalçıların artilleriya atəşinə məruz qalıb. Bu səbəbdən döyüşçülərdən ibarət qruplar piyada şəkildə hərəkəti davam etdirməklə, Şuşa şəhərinə istiqamətlənən döyüş əməliyyatına başlayıblar. Döyüşçülərimiz bir neçə gün ərzində Xocavənd rayonunun dağlıq-meşəlik ərazilərindən, Xocalı rayonunun Çanaqçı, Sığnaq kəndlərindən keçməklə Şuşaya yaxınlaşıblar. Şuşa ətrafında ağır döyüşlər gedib. Bizim qüvvələrin şəhərə irəliləməsi yolunda ciddi maneə olan düşmənin atəş nöqtələri susdurulub.

*Ardı 3-cü səhifədə.*

# Qorumaq üçün maarifləndiririk

Yeniyetmələri zərərli vərdişlərdən çəkindirmək cinayət hadisələrini qabaqlamaq baxımından olduqca önəmlidir. Polisin yetkinlik yaşına çatmayanlarla ardıcıl keçirdiyi maarifləndirici tədbirləri məhz buna görə böyük profilaktik əhəmiyyət daşıyır.

Növbəti analoji tədbir "SOS Uşaq Kəndi"ndə valideyn himayəsindən məhrum olmuş uşaqlarla keçirilib. Onlayn qaydada baş tutan maarifləndirici tədbirdə **Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova və Xətai RPİ-nin inspektoru, polis leytenantı Sevinc İbrahimova** uşaqlara zərərli vərdişlər və onlardan qorunma yolları barədə ətraflı məlmat veriblər.




Xüsusilə, narkomaniya ilə aparılan mübarizəyə diqqət çəkən əməkdaşlarımız bu bəlanın tütün məmulatı və spirtli içkilərdən istifadəylə başladığını, onun insan həyatına və sağlamlığına ciddi təhlükə yaratdığını izah ediblər. Hazırkı pandemiya şəraitində gigiyenik qaydalara əməl edilməsinin zəruriliyini də diqqətə çatdıran polis əməkdaşları, həmçinin evdən xəbərsiz getmə, sosial şəbəkələrdən düzgün istifadə etmək kimi məsələlərə də toxunublar.

Tədbir zamanı uşaqları maraqlandıran suallar cavablandırılıb, müzakirələr aparılıb.

*"Polis"*

# Sağlam gənclik və gələcək naminə

## *Hər bir vətəndaş narkotiklərlə mübarizədə polisə dəstək olmalıdır*

Polis əməkdaşları tərəfindən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizə tədbirləri davam etdirilir. Keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində tutularaq məsuliyyətə cəlb olunanlar barədə, eləcə də qanunsuz dövriyyədən çıxarılan narkotik vasitələrin, psixotrop maddələrin çəkisi ilə bağlı ictimaiyyət Daxili İşlər Nazirliyinin Mətbuat Xidməti tərəfindən gündəlik olaraq məlumatlandırılır. Həmçinin mübarizə tədbirlərinin operativliyini, səmərəliyini, effektivliyini, habelə görülən işlərdə vətəndaş fəallığını artırmaq məqsədilə Baş Narkotiklərlə Mübarizə İdarəsinin də sosial şəbəkələrdə səhifələri fəaliyyət göstərir.

XXI əsrin bəlası sayılan "ağ ölüm"lə effektiv mübarizə metodlarından biri maarifləndirmə işi, antitəbliğat kampaniyasıdır. Asayiş keşikçiləri bu istiqamət üzrə də üzərilərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlirlər.

Son dövrlər isə el arasında "şüşə-patı" kimi tanınan psixotrop maddə olan metamfetaminin 14-17 yaş, hətta qızlar arasında yayılması halları, xüsusilə narahatlıq doğurur. Mütəxəssislər valideynlərin övladının "patı"dan istifadə edib-etməməsini xaricən, simasından anlamaları üçün bir neçə əsas əlamətə diqqət yetirmələrinin vacibliyini bildirirlər.




Bu psixotrop maddəni qəbul edən insanlarda göz bəbəklərinin daralması, sifətin qızarması, gözlərin şüşəyə bənzəyərək donuq olması, baxışlarının bir nöqtəyə dikilməsi, yerində sakit otura bilməməsi, əl-ayaqlarını boş yerə tərpətməsi, ovuşdurması, durmadan danışması, dəridə qaşınmanın çoxalması, bədənində yaraların əmələ gəlməsi, səbəbsiz aqressiya, davaya meyillilik, nəbzin tezləşməsi, yuxusuzluq, təşviş, təlaş halları müşahidə olunur.

Gəncliyimizə, sağlam gələcəyimizə yönəlmiş bu qorxunc təhdidə qalib gəlmək üçün hər bir vətəndaş narkotiklərin satışı ilə məşğul olanlar barədə məlumat verərək onların tutulması, məsuliyyətə cəlb olunması işində polisə dəstək olmalıdırlar.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Vətəndaşların ünvanımıza yazdıqlarından...

**Təhlükəsiz yaşamaq istəyən hər bir vətəndaş polisə etibar edir. Bu etibar hörmət və inamla bərabər, polis-vətəndaş münasibətləri üzərində qurulub. Hər bir polis əməkdaşı dövlətin, dövlətçiliyin qorunmasında, vətəndaşlarımızın əmin-amanlığı üçün gecə-gündüz cinayətkarlara və cinayətkarlığa qarşı mübarizə aparır, xalqa məsuliyyətlə xidmət edir. Bəzən bu, onların həyatı bahasına başa gəlir. Bugünlərdə narkotikin qanunsuz dövriyyəsi ilə məşğul olanları yaxalamaq üçün xidmətdə olan əməkdaşımızın cinayətkar tərəfindən partladılan qumbara nəticəsində həyatını itirməsi polis peşəsinin nə qədər çətin olduğunu və böyük fədakarlıq tələb etdiyini bir daha göstərdi.**

Son vaxtlar sosial şəbəkələrdən təbliğ edilən "ağ ölüm"ün qanunsuz dövriyyəsi və gənclər arasında yayılması cəmiyyətdə narahatlığı artırıb. Vətəndaşlarımızın öz narahatlıqlarını narkotik vasitələrin satışı ilə məşğul olanlar barədə DİN-in müraciətinə aktiv dəstək verməklə ifadə etmələri sevindirici haldır.

Ünvanımıza gələn çoxsaylı təşəkkür məktubları da məhz polisə dəstək xarakterlidir.

**Bakı şəhər sakini Əsgər Müslimov** yazır ki, "azyaşlı övladım olduğu üçün son vaxtlar narkotik vasitələrin geniş yayılması məni çox narahat edirdi. Övladımın gələcəyinə görə həyəcanlıydım. Lakin ərazisində yaşadığım Binəqədi Rayon Polis İdarəsinin 43-cü PB-nin əməkdaşlarının narkotik alverçilərinə və yayılmasının qarşısının alınmasında apardığı qətiyyətli mübarizə biz valideynləri gələcəyə inamla baxmağa ümidləndirir. Mənim polisim məni qoruyur".

Digər məktub müəllifi **Bakı şəhər sakini Tofiq Rəcəbov** isə yazır ki, "sosial şəbəkələrdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı aparılan mübarizənin yetərsizliyi ilə bağlı iradlarla razı deyiləm. Mən Saatlı rayonunda doğulduğum üçün ora gedib-gəlirəm və əminliklə deyə bilərəm ki, Saatlıda "ağ ölüm"ə qarşı mübarizə qətiyyətli şəkildə aparılır. Eləcə də yaşadığım Abşeron rayonunda narkotik vasitələrin yayılmasının qarşısı Azərbaycan Polisi tərəfindən qətiyyətlə alınaraq dövriyyədən çıxarılır və satışı ilə məşğul olanlar da məsuliyyətə cəlb olunurlar. Buna görə dərin minnətdarlığımı bildirirəm".

Bu qəbildən olan digər məktubları ünvanımıza **Ceyhun Əsgərov və Asif Vəliyev** göndərib. Onlar Xəzər rayonunun Binə qəsəbəsində narkomaniyaya qarşı aparılan mübarizəyə görə Azərbaycan Polisinə təşəkkür edirlər.

**Sosial şəbəkə izləyicisi** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda yaşadığı ərazidə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı etdiyi müraciətə operativ və çevik baxılmasına görə Nizami RPİ-nin 23-cü Polis Bölməsinin



əməkdaşlarına minnətdarlığını bildirir.

**Bakı şəhər sakini, şair-jurnalist Fuad Şahin** Xəzər rayonunun Binə qəsəbə sakinləri adından məktub vasitəsilə bildirir ki, Xəzər RPİ-nin 3-cü Polis Bölməsinin rəhbərliyi və şəxsi heyəti qəsəbə sakinlərinin müraciətlərini, şikayətlərini dinləyir, lazımi tədbirlər görərək problemlərinin həll olunmasında köməklik göstərir. Bu diqqət və qayğıya görə DİN rəhbərliyinə və şəxsi heyətinə dərin təşəkkürünü ifadə edir. Qeyd edək ki, o, polis haqqında yazdığı şeiri də bizə göndərib.

Mingəçevir şəhər sakini, hazırda Bakı şəhəri **Yasamal rayonunda yaşayan Narınc Abdurahmanova** DİN rəhbərliyinə ünvanladığı məktubunda ona qarşı edilən dələduzluqla əlaqədar etdiyi şikayətə operativ baxılaraq, probleminin tez bir zamanda aradan qaldırılmasında göstərilən köməkliyə görə Nizami RPİ-nin 25-ci Polis Bölməsinin şəxsi heyətinə təşəkkür edir.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# Andın andımızdır, cənab kapitan!



**Cinayətkarlıqla mübarizədə Azərbaycan Polisi itki verdi ötən həftə. Polis kapitanı Elçin Səfərov axtarışda olan şübhəli şəxsin yaxalanması üçün keçirilən əməliyyat zamanı aldığı ağır xəsarətlərdən sonra tezliklə sağalaraq yenidən sıralarımıza qayıdacağına bəslədiyimiz səbirsiz ümidlərimizlə birlikdə əbədiyyətə köçdü.**

Elçin Səfərov mərdliyi, qorxmazlığı, şücaəti ilə polisin mübarizə ilə yoğrulan şərəfli tarixinə öz adını əbədi həkk etmiş oldu. Məsləyi uğrunda, andına sədaqəti naminə canını fəda edən silahdaşımız cümlə-aləmə ölümün belə Azərbaycan Polisinin yolunda əngəl olmadığını bir daha göstərdi.

Polisə yönələn bu qəsd hadisəsində başqa önəmli məqamlar da var.

Əvvəla, keçirilən əməliyyat zamanı qumbara partladılması aydın səmada çaxan şimşək kimi qəribəliyi ilə diqqət çəkir. İlboyu cinayətkarları yaxalamaq üçün xüsusi əməliyyatlar keçirən asayiş keşikçilərinin həyatları üçün, təbii ki, risklər yaranır. Çünki bəzən cinayətkarlar silahlı müqavimət göstərirlər. Bu hadisəyə qədər də ölkəmizdə cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi vəzifələrini yerinə yetirərkən 99 polis əməkdaşı və hərbi qulluqçunun həlak olması, 2 min 640 əməkdaşın xəsarət alması əmin-amanlığın məhz polisin canı-qanı bahasına ərsəyə gəldiyini sübut edir.

Son hadisədəki "kamikadze cinayətkar" isə həm polisin mübarizə apardığı cinayətkar şəbəkənin mahiyyətini görmək, həm də onlar üçün artıq meydanın daraldığını, çarəsiz olduqlarını anlamaq baxımından fərqlidir.

Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cəmiyyətdə də artan narahatlıq fonunda qətiyyətli mübarizə aparan polisin guya "patı", "şüşə" kimi sintetik tərkibli narkotik vasitələrin yayılmasının qarşısını ala bilmədiyi barədə sosial şəbəkələrdə gedən müzakirələri xatırlayaq. O zaman da aydın idi ki, ölkə xaricindən idarə olunan bu hesablar açıq-aşkar kütləvi narkotik elanları verməklə, nəzarətsizlik illüziyası yaratmağa çalışırdılar. Halbuki, hər gün narkotik satmağa cəhd edənlərin tutulmasını əks etdirən məlumatlar ictimaiyyətin diqqətinə çatdırılırdı, elə indi də bu mübarizə davam etdirilir.

Əməkdaşımızın da məhz narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən şəxslərin tutulması üçün keçirilən əməliyyatda ağır yaralanması, sonu bizim üçün son dərəcə kədərli də olsa, həqiqəti hamının görə biləcəyi yüksəkliyə qaldırıb "baxın, həqiqət budur!" deyə hayqırtısı oldu. Bəli, polis narkotik satıcıları ilə ölümü gözə alıb mübarizə aparır ki, gəncləri - gələcəyi xilas etsin.

Əlbəttə, cinayətkarlığın bütün təzahürlərinə, eləcə də narkomaniyaya qarşı aparılan genişmiqyaslı mübarizə birbaşa DİN rəhbərliyinin iradəsini ifadə edir. Bu prinsipial mövqe yerlərdə cinayətkarla üz-üzə dayanan polis əməkdaşı üçün böyük dayaq, vəzifəsini yerinə yetirərkən üzləşə biləcəyi istənilən təzyiq və hədəyə qarşı etibarlı siperə çevrilir. Daxili İşlər Nazirliyi rəhbərliyinin polis əməkdaşı ilə keçirlən vida mərasimində iştirak etməsi, ictimaiyyətin polisin haqlı mübarizəsinə ciddi dəstək verməsi də kədərə şərik olmaq istəyindən daha artıq məna kəsb edir. Son mənzilə yola salınan polis əməkdaşına xidmətlərinə görə ifadə edilən hörmət, ehtiram, həm də daha qətiyyətli mübarizənin başlanmasının anonsudur.

Ruhun şad olsun, cənab kapitan! Haqq yolunda fəda etdiyin canın artıq Vətən torpağına əmanətdir.

Andın andımız, mübarizən mübarizəmizdir!

*"Polis"*

# DÖYÜŞÇÜ MƏTİNLİYİ, SİLAHDAŞ DƏYANƏTİ

*Əvvəli 2-ci səhifədə.*

Xüsusi təyinatlı dəstənin komandiri polkovnik-leytenant Anar Rizvanov söylədi ki, Emili hələ "N" saylı hərbi hissədən tanıyıb. Qeyd etdi ki, o, vətənpərvər, döyüş şəraitində iradəli və qətiyyətli, hərbi anda sadiq, öz vəzifələrinə məsuliyyətlə yanaşan hərbi qulluqçu olub. Şəhid olduğu anadək işğalçılara qarşı cəsurcasına vuruşub.

Hərbi hissədə ayrı yerləşən bölmənin xüsusi təyinatlı qrupunun komandiri baş leytenant Bilal Məmmədov da deyib ki, Emil döyüşdə həmişə öndə gedən hərbi qulluqçulardan biri idi, öz cəsarəti ilə silahdaşlarını da ruhlandırırdı, döyüş qabiliyyəti, fiziki hazırlığı ilə seçilirdi. "4 gün boyunca düşmənin nəzarətindəki ərazidən keçməyi bacararaq Şuşa-Laçın yoluna çatdıq. Aldığımız döyüş tapşırığına görə, oradakı mövqeləri ələ keçirməli və qoruyub saxlamalı idik. Noyabrın 4-də düşmənlə üzbəüz döyüşə girdik. Çətin ərazi idi, biz aşağıdaydıq, düşmən təxminən 400 metr yuxarıda yerləşmişdi. Vuruşaraq irəlilədik, o yüksəkliyə qalxdıq. Orada 3 erməni mövqeyindən ikisini məhv etdik, qalan birində olanlar isə qaçdılar. Həmin yüksəklikdə mövqelləndik. Beləcə, Laçın yolu ilə düşmənin Şuşadakı qüvvələrinə dəstək göstərməsinin qarşısını aldıq. Həmçinin, Şuşadan qaçan erməni hərbçilər atəş hədəfimizdə idilər. Bu vəziyyətdə düşmən yerləşdiyimiz yüksəkliyi üç tərəfdən artilleriyadan şiddətli atəşə tutdu. Emil yaxınlığına düşən minaatan mərmisinin partlayışı nəticəsində bir neçə nahiyədən ağır yaralandı. İlk yardım göstərilsə də, çoxlu qan itirdiyindən həyatını xilas edə bilmədik. O, döyüşdə bir neçə nəfər hərbi qulluqçumuz şəhid oldu və yaralandı".

Gizir E.İsgəndərov Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15 və 29.12.2020-ci il tarixli müvafiq sərəncamları ilə gizir Emil İsgəndərov ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Emilin 2 azyaşlı oğlu yadigar qalıb.

Qeyd edək ki, Emilin qardaşı Əli hərbi xidmət zamanı 2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasının ərazisində uğurlu Günnüt əməliyyatının iştirakçısı olub. Eləcə də Vətən müharibəsində ehtiyatdan çağırılaraq, sürücü-əsgər kimi fəaliyyət göstərib. Hazırda polis əməkdaşıdır.

*Yalçın Abbasov,*
*DİN Daxili Qoşunlarının veteranı*

# VAKSİNASİYA DAVAM ETDİRİLİR

**Koronavirus infeksiyasının qarşısının alınmasına, virusa yoluxma və ölüm səviyyəsinin aşağı salınmasına nail olmaq üçün bu bəşəri bəlaya qarşı mübarizə məqsədilə əhalinin peyvənd olunması prosesi bu gün də uğurla davam etdirilir.**




Statistika göstərir ki, Azərbaycan peyvəndlənmə səviyyəsi baxımından MDB ölkələri arasında lider mövqelərdədir. MDB məkanında koronavirusa qarşı peyvəndlənmənin səviyyəsi barədə məlumatlara əsasən, regionda buna ilk başlayan ölkələrdən biri olan Azərbaycan həm peyvənd olunma həcminə, həm də ondan istifadə sürətinə görə əksər ölkələri qabaqlayır. Ölkəmizdə iki ilə yaxındır ki, pandemiya ilə mübarizəyə daxili işlər orqanları da cəlb olunub.



Hazırda Daxili İşlər Nazirliyinin 1 və 2 nömrəli poliklinikalarında DİO-da xidmət edən əməkdaşların peyvəndlənməsi, həmçinin ikinci doza vaksinin vurulması prosesi davam edir. Koronavirus infeksiyasının bütün ştammlarına qarşı ən effektli qoruyucu mexanizmin vaksinasiya olduğunu bildirən **DİN 1 nömrəli Poliklinikasının Terapiya bölməsinin rəisi, polis mayoru Aynurə Hacıyeva** "Polis"in suallarını cavablandırarkən deyib ki, cari ilin 6 ayı ərzində 1 nömrəli poliklinikada 10 mindən çox əməkdaşa birinci, 7 mindən çox əməkdaşa isə ikinci doza vaksin vurulub. Həkim terapevt əməkdaşların vaksinasiya prosesində iştirak etməsinin qənaətbəxş olduğunu da qeyd edib. O, əlavə edib ki, peyvənd hər birimizi bu bəlaya düçar olmaqdan qoruyur, həm də dövlətimizin virusla mübarizə strategiyasını daha da gücləndirir.

A.Hacıyeva onu da bildirib ki, poliklinikamızda xüsusi peyvənd otaqları var ki, burada həkimlər tərəfindən vaksinasiya olunandan sonra əməkdaşların səhhəti nəzarətdə saxlanılır.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# Əməkdaşımız baş məşqçi oldu



Polis əməkdaşı Döyüş Sambosu üzrə Azərbaycan milli komandasının baş məşqçisi təyin olunub. Millimizin üzvlərindən olan Bəxtiyar Abbasovun yığmaya baş məşqçi gətirilməsi barədə Sambo Federasiyasının rəhbərliyi qərar qəbul edib.

Bir çox beynəlxalq yarışlarda Azərbyacanı "Qəbələ" İdman Klubunun MMA döyüşçüsü kimi təmsil edən Bəxtiyar Abbasovun adı bizim üçün də yad deyil. O, 2006-cı ildən daxili işlər orqanlarında xidmət edir və hazırda Sabunçu Rayon Polis İdarəsinin Cinayət Axtarışı Şöbəsinin baş əməliyyat müvəkkilidir.

Əməkdaşımız 44 günlük Vətən müharibəsində də iştirak edib. Müharibədən sonra polis kapitanı rütbəsilə mükafatlandırılıb.

Xatırladaq ki, həmkarımız dünyanın nüfuzlu turnirlərində ölkəmizi uğurla təmsil edib. WMMAF versiyasına görə MMA üzrə ikiqat, pankration, ciu-citsu və əlbəyaxa döyüş üzrə dünya çempionu titullarına sahib olan polis kapitanı, bundan başqa, PROFC-GPG çempionudur.

# Kinematoqrafçılar həmkarımızı mükafatlandırıb

**Azərbaycan Kinematoqrafçılar İttifaqı Kino Günü ənənəvi mükafatının qaliblərini elan edib.**

Qaliblərin sırasında təltif olunan kinematoqrafçılar arasında **Nəqliyyatda Baş Polis İdarəsinin əməkdaşı, polis mayoru, rejissor Emil Quliyev** də var. Həmkarımız "Pərdə" trilogiyasında sosial-mənəvi problemlərin uğurlu kino həllinə görə təltif olunub.

Eyni zamanda, senarist Nəriman Əbdülrəhmanlı Azərbaycan kino salnaməsinin yaradılmasında xidmətlərinə görə, rejissor Hilal Baydarov isə "Səpələnmiş ölümlər arasında" filmində obrazların poetik vizual həllində uğurlarına görə mükafatlandırılıb.

Qeyd edək ki, mükafatı təsis etməkdə məqsəd milli kinoda müsbət tendensiyaları diqqət mərkəzinə gətirməkdir. Nominantların seçimini apararkən İttifaqın katibliyi ötən kino mövsümü ərzində gedən prosesi diqqətlə müşahidə və təhlil edir, kinematoqrafiyanın müxtəlif sahələrindəki xidmətləri qeyd edir və açıq səsvermə yolu ilə laureatları seçir.

# Çətənə kolları yetişdirən şəxslər saxlanılıb

**Abşeron Rayon Polis İdarəsinin Qobu Polis Bölməsinin əməkdaşları tərəfindən narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi, həmçinin, narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olan şəxslərin aşkar edilərək məsuliyyətə cəlb edilmələri istiqamətində növbəti əməliyyatlar həyata keçirilib.**

Belə ki, Polis Bölməsinə əvvəllər məhkum olunmuş Əli Kiçikbəyovun Hökməli qəsəbəsində yaşadığı evin həyətində çətənə bitkilərini əkib-becərdiyi, həmçinin narkotik vasitələrin qanunsuz dövriyyəsini həyata keçirdiyi barədə əməliyyat məlumatı daxil olub. Dərhal polislər tərəfindən həmin ünvana baxış keçirilib. Bu zaman Əli Kiçikbəyovun həyətində xüsusi qulluq edərək yetişdirdiyi 11 ədəd çətənə bitkisi aşkar edilib. Davam etdirilən əməliyyat tədbirilə ondan əlavə olaraq marixuana, çətənə toxumları, 5 büküm heroin, 2 büküm metamfetamin və elektron tərəzi aşkar edilib. Saxlanılan şəxs ifadəsində narkotik tərkibli bitkiləri bu ilin əvvəlində əkdiyini və xüsusi qulluq etdiyini bildirib.

Bölmə əməkdaşlarının Aşağı Güzdək qəsəbəsi ərazisində həyata keçirdikləri digər bir əməliyyat zamanı isə narkotik tərkibli çətənə kollarının kultivasiyası ilə məşğul olan, əvvəllər dəfələrlə məhkum edilmiş qəsəbə sakini Rasim Rzaxanov da saxlanılıb. Onun evinin həyətinə baxış zamanı 1 kiloqrama yaxın marixuana və 15 ədəd xüsusi qulluq edərək yetişdirdiyi çətənə kolu aşkar edilib.

# NARKOTİK VASİTƏLƏRİN SATIŞI İLƏ MƏŞĞUL OLANLAR SAXLANILIB

**Polis əməkdaşları tərəfindən narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin saxlanılması istiqamətində əməliyyatlar qətiyyətlə davam etdirilir.**

Belə ki, Daxili İşlər Naziriyi Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyatlar nəticəsində Bərdə rayonu ərazisində narkotik vasitələrin satışını həyata keçirən, həmçinin Bakı şəhərində digər qanunazidd əməllər törədən 5 nəfərdən ibarət mütəşəkkil dəstənin üzvləri saxlanılıb. Əvvəllər dəfələrlə məhkum olunmuş Aslan Fərəcov, Asəf Səmədzadə, Mahmud Nəzərov, Rəşad Salahov və Tapdıq Mehdiyev tutulublar. Onların üzərində şəxsi axtarış zamanı külli miqdarda heroin və 1 ədəd "Vincester" markalı ov silahı aşkar edilib. Həmçinin Asəf Səmədzadənin üzərindən və idarə etdiyi avtomobildən də əlavə olaraq, ümümilikdə 70 qrama yaxın heroin və metamfetamin aşkar edilib.




BNMİ-nin Qərb Bölgəsində Regional Şöbəsinin əməkdaşlarının Füzuli rayonunda həyata keçirdikləri əməliyyat zamanı isə qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə keçirilən külli miqdarda narkotik vasitənin realizə edilməsinin qarşısı alınıb. Əməliyyat zamanı rayonun Böyük Bəhmənli kənd sakini Xalid Məmmədov saxlanılıb. Onun əlindəki bağlamadan və yaşadığı kənddə gizlətdiyi yerdən ümumi çəkisi 5 kiloqramdan artıq heroin, marixuana və 1 kiloqrama yaxın metamfetamin aşkar edilib.

Şöbə əməkdaşlarının Goranboy rayonunda həyata keçirdikləri növbəti əməliyyat zamanı isə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan, əvvəllər də eyni əməllərə görə dəfələrlə məhkum olunmuş Tərtər rayon sakinləri Sabir Məmmədov, Dağlar Misirov və Elçin Məmmədov saxlanılıblar. Sonuncunun idarə etdiyi avtomobilə baxış zamanı ümumi çəkisi 10 kiloqram 450 qram olan marixuana aşkar edilib. Bu şəxslər ifadələrində marixuananı satmaq məqsədi ilə əldə etdiklərini bildiriblər.

Baş İdarənin əməkdaşlarının Binəqədi rayonunda həyata keçirdikləri əməliyyat zamanı Cəlilabad rayon sakini Elşad Əliyev saxlanılıb. Onun üzərindən və Binəqədi rayonunda yerləşən evindən isə ümümilikdə 1 kiloqram 180 qram heroin, metamfetamin və elektron tərəzi aşkar edilib.

Abşeron və Nəsimi rayonlarında həyata keçirilən digər əməliyyatlar zamanı da narkotik vasitələrin, xüsusən psixotrop maddə olan metamfetaminin satışı ilə məşğul olan 3 nəfər saxlanılıb. Xırdalan şəhərində baş tutan əməliyyat zamanı Novruz Baxşıyevdən ümumi çəkisi 1 kiloqram 775 qram olan metamfetamin və heroin aşkar olunub. Nəsimi rayonunda keçirilən əməliyyatlar zamanı isə Akif Süleymanov və Rasim Hüseynov saxlanılıblar. Bu şəxslərdən də psixotrop maddə olan metamfetamin aşkar olunaraq maddi sübut kimi götürülüb.

Sonuncu əməliyyatlar zamanı ümumilikdə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan 14 nəfər məsuliyyətə cəlb edilib və qanunsuz dövriyyədən 27 kiloqramdan artıq narkotik vasitə və psixotrop maddə çıxarılıb. Faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb və adları sadalanan şəxslər tutularaq istintaqa cəlb olunublar. Zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

*Anar Qafarov,*
*polis mayoru*

# OĞRULAR MƏSULİYYƏTƏ CƏLB OLUNDU

**Nəsimi Rayon Polis İdarəsinin İstintaq şöbəsi əməkdaşları tərəfindən müxtəlif vaxtlarda rayon ərazisindəki köşkdən və gözəllik salonundan oğurluq edən şəxslər saxlanılıb.**




***Nəsimi RPİ İstintaq şöbəsinin baş müstəntiqi, polis baş leytenantı İslam Mürsəlov*** "Polis"ə bildirib ki, təqsirləndirilən şəxslər toplanmış materiallar əsasında cinayət məsuliyyətinə cəlb olunublar və vurduqları maddi ziyanın qismən ödətdirilməsi təmin edilib.

Baş müstəntiqin sözlərinə görə, Lənkəran rayon sakini Mail Məmmədov Murad Xəlilova məxsus köşkün qapısının dəstəyini sındıraraq saxlanc yerinə qanunsuz daxil olub, özgənin əmlakını gizli olaraq talayıb. O, köşkdən 3 min 524 manat dəyərində tütün məmulatları, eləcə də kassadan 412 manat oğurlayıb. Zərərçəkmişin şikayəti əsasında əməliyyat-axtarış işinə başlanılıb və qısa müddət ərzində "müqəssir" tutulub. M.Məmmədov istintaqçıların təqdim etdiyi maddi sübutlar qarşısında aciz qalıb.

Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Namaz Bəkirov da anoloji əmələ görə saxlanılıb. O, vətəndaş Dilşad Rəhimovanın işlətdiyi gözəllik salonuna qanunsuz daxil olaraq 160 manat, min manat dəyərində bəzək və geyim əşyaları oğurlayaraq, ümumilikdə 1160 manat maddi ziyan vurub.

Törətdikləri əmələ görə onlara Nəsimi RPİ İstintaq şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb.

Təqsirləndirilən şəxsləri bu əməlləri törətməyə narkotik aludəçisi olmaları sövq edib.

*Teymur Əlizadə,*
*polis mayoru*




**Gəncə şəhər BPİ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş T.Məcnunidən "Makarov" markalı tapança, patron darağı və 4 ədəd patron aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Binəqədi RPİ 6-cı PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Biləcəri qəsəbə sakini, əvvəllər məhkum olunmuş H.Həbibov saxlanılıb. Şəxsi axtarış zamanı ondan heroin aşkar edilib. Davam etdirilən tədbirlərlə onun evinə baxış zamanı isə oradan əlavə 1 kiloqramdan artıq heroin götürülmüşdür.

◆◆◆

**Sabunçu RPİ 12-ci PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisindəki evlərin birindən 6 min manatı, 8 min manat dəyərində qızıl-zinət əşyaları və müşahidə kamerasının yaddaş qurğusunu oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini C.Babayev saxlanılmış, digər bir nəfərin isə şəxsiyyəti müəyyən edilmişdir.

◆◆◆

**Yasamal RPİ 26-cı PB** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində Bakı şəhər sakini Y.Qurbanovanın içərisində 890 manat və 100 ABŞ dolları olan pulqabısını oğurlamaqda şübhəli bilinən N.Musayev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan heroin və metamfetamin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Suraxanı RPİ 30-cu PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində rayon ərazisindəki evlərin birindən 6 min manat dəyərində məişət əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri B.Məmmədov və N.Hüseynov saxlanılmışlar. Şəxsi axtarış zamanı onlardan heroin və metamfetamin aşkar edilərək götürülmüşdür.

# "Xaşxaş-2021" tədbirləri davam etdirilir

Yevlax RPŞ-nin əməkdaşları Yuxarı Qarxun kənd sakini R.İsayevə məxsus həyətyanı sahədən 25, Bərdə RPŞ-nin əməkdaşları Dəymədağıldı kənd sakini B.Hüseynova məxsus həyətyanı sahədən 19, Ağdaş RPŞ-nin əməkdaşları Binələr kənd sakini R.Ağaməmmədova məxsus həyətyanı sahədən 23, Gəncə şəhər BPİ-nin əməkdaşları şəhər sakini E.Məmmədovun yaşadığı evin həyətindən 17, Ağdam RPŞ-nin əməkdaşları Paşabəyli kənd sakini M.Heybətova məxsus həyətyanı sahədən 28, Balakən RPŞ-nin əməkdaşları Xalatala kənd sakini, əvvəllər məhkum olunmuş N.Dibirova məxsus həyətyanı sahədən 8, Salyan RPŞ-nin əməkdaşları şəhər sakini, əvvəllər məhkum olunmuş A.Əzizova məxsus həyətyanı sahədən 29, Goranboy RPŞ-nin əməkdaşları Borsunlu kənd sakini M.Zeynalova məxsus həyətyanı sahədən 8, Sabirabad RPŞ-nin əməkdaşları Qəzli kənd sakini A.İsgəndərova məxsus həyətyanı sahədən 11, Xaçmaz RPŞ-nin əməkdaşları Gülülan kəndi ərazisində kənd sakini Ş.Yarıyevə məxsus əkin sahəsindən 51 ədəd kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolları aşkar edərək götürmüşlər.

Xocavənd RPŞ-nin əməkdaşları tərəfindən Şexer kəndi ərazisində 1 hektar sahədə yabanı halda bitmiş 125, Gədəbəy RPŞ-nin əməkdaşları tərəfindən Başkənd kəndi ərazisində 50 sot sahədə yabanı halda bitmiş, çəkisi 2,3 ton olan 5 min 742, Qax RPŞ-nin əməkdaşları tərəfindən Fıstığı kəndi ərazisində 80 sot sahədə yabanı halda bitmiş 1 ton 700 kiloqram çəkidə 5 min 431, Yevlax RPŞ-nin əməkdaşları tərəfindən Aşağı Qarxun kəndi ərazisində yabanı halda bitmiş 137 kiloqram 400 qram çəkidə 150 ədəd yabanı halda bitmiş çətənə kolları aşkar edilərək məhv edilmişdir.

*Natiq Cavadov,*
*polis mayoru*

# Envayronmental kriminologiya nədir?

Envayronmental kriminologiya ətraf mühitin xüsusən də şəhər mühitinin bir insana kriminogen təsir göstərən elementlərini vurğulayan, eyni zamanda onun davranışını təhlil edən kriminologiyanın bir hissəsidir.

Ənənəvi kriminoloji nəzəriyyələrdən fərqli olaraq, envayronmental kriminologiya cinayətin əsas səbəblərini müəyyənləşdirməyə və şəxsin cinayətkara çevrilməsini izah etməyə çalışmır. Bu nəzəriyyə tədqiqat mənbələrini, cinayət üçün əlverişli imkanları təhlil etməyə, cinayət zamanı zərər çəkmiş şəxslərin təhlükəsizliyini və qorunmasını təmin etmək imkanlarını nəzərdən keçirməyə, cinayətin baş verdiyi mühiti araşdırmağa yönəldir. Envayronmental kriminologiya tədqiqat mövzusunu cinayət vaxtı ilə məhdudlaşdırır: yəni cinayət törədən şəxsi fikrindən yayındırmağa, buna kömək edə biləcək ümumi davranış nümunələrini və ya ətraf mühit faktorlarını müəyyənləşdirir. Envayronmental kriminologiya - cinayətin analizində situasiyada əsas element kimi götürülür.

Cinayətlərin ölkəyə, bölgəyə və əraziyə görə bölünməsi, yəni cinayətin coğrafiyası anlamına sözügedən nəzəriyyədə kriminalistlər fərdi yanaşır.

Alman kriminalisti G.J.Şnayder cinayətin coğrafiyasını "cinayət ekologiyası" və "cinayət topoqrafiyası" anlayışları ilə tamamlayır. Onun fikrincə, "cinayət ekologiyası" bir tərəfdən ətraf mühitin, iqlimin, flora və faunanın, təbii landşaftın, tikinti quruluşunun, digər tərəfdən insan təcrübələrinin və cinayətkar davranışlarının qarşılıqlı təsirini əhatə edir. Və "cinayət topoqrafiyası" binaların içərisində, mənzillərdə, dükanlarda, otellərdə və xəstəxanalarda ola biləcək cinayət səhnələrinin analizinə yönəlmişdir...

Envayronmental kriminologiya cinayətin və viktimizasiyanın nəticələrinin, ətraf mühitin xüsusiyyətləri ilə əlaqəli olaraq araşdırılması, fərdlərin və qrupların öz fəaliyyətlərini məkan olaraq necə təşkil etdiklərini nəzərə alır. Beləliklə, cinayətin açılmasında ekoloji və məkan amilləri ortaya çıxır.

Kriminologiyada ətraf mühit yanaşması 1980-ci illərdə Paul və Patrisiya Brantinqham tərəfindən cinayət fəaliyyətinə təsir edən kontekstual və ətraf mühit faktorlarının təhlilində tətbiq edilmişdir.

Kriminologiyada ekoloji yanaşma çərçivəsində cinayətin harada və nə vaxt baş verdiyi yer və vaxt araşdırılır. Torpaqdan istifadə üsulu, hərəkət və hərəkət sisteminin xüsusiyyətləri, məkanın dizayn xüsusiyyətləri, qurbanların və cinayətkarların gündəlik fəaliyyəti, hərəkəti nəzərə alınır.

*Hazırladı: R.Vəliyev*

## Avqust ayının 4-dən 9-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində 291 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 56 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 237, o cümlədən borclu şəxs qismində axtarışda olan 141 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 13 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 13 nəfər ölmüş, 7 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 203 fakt müəyyən edilmişdir.

POLİS
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR:
HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9470
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 15:00
Qiyməti 40 qəpik